

# Təcrübəyə arxalanaraq

**Bərdə Rayon Mədəniyyət və Turizm Şöbəsinin illəri uğurla başa vurması bir adət halını alıb. Maraqlıdır ki, heç birimiz bunda bir gözlənilməzlik görmürük. Düşünürük ki, Soltan Həsənov kimi təcrübəli mədəniyyət xadiminin rəhbərliyi altında çalışan kollektiv elə belə də olmalıdır.**

Amma onu da unutmaq olmaz ki, naiiyyət üçün əvvəlcədən bütün imkanları götür-qoy etmək, əməkdaşları eyni məqsəd ətrafında cəmləşdirmək, qüvvələri səfərbər etmək gərəkdir. Məsuliyyət hissi güclü insanlar həmişə belə edirlər. Bu mənada, bir sıra kollektivlərin, xüsusən Quba, Cəlilabad, Ağsu, Biləsuvar, Daşkəsən və digər şöbələrin Bərdədən görüb-götürəcəyi çox cəhətlər var.

Məlumat üçün bildirək ki, Bərdə Rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində rayon mədəniyyət evi, min yerlik şəhər mədəniyyət sarayı, 5 şəhər klubu, tarix-diyarşünaslıq muzeyi, Heydər Əliyev muzeyi, rəsm qalereyası, 7 uşaq musiqi məktəbi, mədəniyyət və istirahət parkı, rayon kino birliyi, 33 kənd mədəniyyət evi, 72 kənd klubu, mərkəzi rayon kitabxanası, 10 şəhər kitabxanası, 109 kənd kitabxanası fəaliyyət göstərir.

2009-cu ildə mədəniyyət müəssisələrinin maddi-texniki bazası xeyli yaxşılaşdırılmışdır. Mədəni-maarif müəssisələrində 30 min manat məbləğində cari və əsaslı təmir işləri görülmüşdür. Belə ki, rayon mədəniyyət evi, Divanlı kənd uşaq musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, rayon uşaq kitabxanası, 1 və 28 saylı şəhər kitabxanaları təmir edilmişdir.

Mərkəzi rayon kitabxanası Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "2009-cu il- Kitabxanaların avtomatlaşdırılması ili" elan edilməsi ilə bağlı tam yenidən qurulmuş, əsaslı təmir edilmiş, elektron kitabxana kimi fəaliyyət üçün müvafiq işlər görülmüşdür.

Kətəlpapaq kənd musiqi məktəbi üçün müasir tipli yeni məktəb binası gənc musiqiçilərin ixtiyarına verilmişdir. Yalnız rayonda deyil, həm də respublikada alternativi olmayan yeni uşaq incəsənət məktəbi bütün bərdəlilər üçün gözəl hədiyyə olmuşdur.

Tarix-diyarşünaslıq muzeyinin maddi-texniki bazası möhkəmləndirilmiş, ekspozisiyalarının sayı artırılmışdır.

Hesabat ilində mədəni-maarif müəssisələrinə təxminən 100 min manat məbləğində inventar və avadanlıqlar alınıb verilmişdir.

Bərdə Rayon Mədəniyyət və Turizm şöbəsi 38 adda dövrü mətbuata abunə yazılmışdır.

Söhbət zamanı Soltan müəllim bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmr və sərəncamlarını Rayon İcra Hakimiyyətininin sərəncam və göstərişlərini əldə rəhbər tutan şöbə öz işini yüksək səviyyədə qurmağa çalışır.

Rayonda fəaliyyət göstərən bədii özfəaliyyət kollektivləri uşaq musiqi məktəbləri, incəsənət və rəssamlıq məktəblərinin kollektivləri müntəzəm olaraq baxış-müsabiqələrdə iştirak edir və fərqlənirlər.

Belə ki, 1-5 mart 2009-cu il tarixdə tətbiqi sənət ustalarımızın Gəncə şəhər Rəsm Qalereyasında keçirilən baxış-müsabiqədə əl işləri və Qarabağ xalçaları yüksək dəyərləndirilmişdir.

18-20 mart tarixlərdə Bakı şəhər Qız qalasının ətrafında Novruz bayramı münasibətilə təşkil olunmuş əl işlərindən ibarət sərgidə Quliyev Ələkbər Muğam oğlu iştirak etmişdir.

Uşaq musiqi məktəblərinin kollektivləri də baxış-müsabiqələrdə iştirak etmiş və müvəffəqiyyətlə çıxış etmişdir. Belə ki, 13 aprel 2009-cu il tarixdə Gəncə şəhərində keçirilmiş uşaq xor kollektivlərinin VI respublika müsabiqəsində İncəsənət məktəbi üzrə 25, 3 saylı uşaq musiqi məktəbi üzrə 26, Kolayır kənd musiqi məktəbi üzrə 25, Divanlı kənd musiqi məktəbi üzrə 29, Kətəlpapaq kənd musiqi məktəbi üzrə 12 nəfər şagird müvəffəqiyyətlə çıxış etmişlər.

12 may 2009-cu il tarixdə Mingəçevir şəhərində keçirilən milli musiqi alətləri ifaçılarının IV respublika müsabiqəsində 13 nəfər müəllim və şagird çıxış etmişdir. Uşaq incəsənət məktəbi üzrə III sinif şagirdi Qədimalıyev Təbriz Etibar oğlu və Musayev Pərviz Çingiz oğlu S.Rüstəmovun "Qərənfil", T.Quliyevin "Axşam", S.Ələsgərovun "Daimi hərəkət" əsərlərini, həmçinin "Çahargah" və "Şur" muğamlarını ifa etmiş, fəxri diplomlara layiq görülmüşlər.

2 saylı uşaq musiqi məktəbinin V sinif şagirdi Namazov Nəbi Emil oğlu, V.Adıgözəlovun "Qərənfil" əsərini çalmış, fəxri fərmana layiq bilinmişdir.

"2009-cu ilin "Uşaq ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il dekabr tarixli, 103 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə mədəni-maarif müəssisələrində uşaqlarla bağlı mədəni-kütləvi tədbirlər yüksək səviyyədə təşkil olunmuşdur.

1-9 yanvar 2009-cu il tarixlərdə yeni il münasibətilə uşaqlar üçün "Sən nə gözəlsən yolka" mövzusunda şənlik təşkil edilmişdir.

20 yanvar 2009-cu il tarixdə Qanlı yanvar faciəsinin ildönümü ilə əlaqədar "Şəhidlər əbədi yaşayır" mövzusunda ədəbi-bədii kompozisiya, 23-25 yanvar tarixlərdə milli-mənəvi dəyərləri qoruyub saxlamaq məqsədilə "Ana dilimizi sevək, sevdirək" mövzusunda ədəbi-bədii kompozisiya, 26-27 yanvar tarixlərdə "N" saylı hərbi hissənin əsgər və zabitləri üçün "Azərbaycan əsgəriyəm" mövzusunda, 28 yanvar tarixdə məcburi köçkünlər üçün "Vətən bizi səsləyir" mövzusunda ədəbi-bədii kompozisiya, 29 yanvarda rayon mədəniyyət evində rayonun muğam sənətinin inkişafında xidməti olan, uşaqlara muğamın sirlərini öyrədən Maarif Məmmədovun 70 illik yubileyi münasibətilə ədəbi-bədii gecə, 2 fevralda Gənclər günü münasibətilə "Fəxr edirəm ki, Azərbaycan gənciyəm" mövzusunda konsert, 5-8 fevral tarixlərdə Milli ordunun əsgər və zabitləri üçün "Azərbaycan əsgəriyəm" mövzusunda ədəbi-bədii kompozisiya, 10-15 fevral tarixlərdə "Uşaq ili" münasibətilə "Uşaqlar bizim sevincimizdir" mövzusunda şənlik, 24 fevral tarixdə Beynəlxalq Ana dili günü münasibətilə "Ana dilim ölən deyil" mövzusunda ədəbi-bədii kompozisiya təşkil edilmişdir.

26 fevral tarixdə Xocalı soyqırımının 17 ildönümü günü ilə əlaqədar "Qisas qiyamətə qalmayacaqdır" mövzusunda ədəbi-bədii kompozisiya, sənədli və bədii filmlərin nümayişi təşkil olunmuşdur.

Xalq artisti Firəngiz Şərifovanın 85 illik yubileyi münasibətilə "Onun sənət yolu", xalq artisti Tariyel Qasımovun 70 illik yubileyi münasibətilə "Sənətin sehrində", 8 mart Beynəlxalq Qadınlar bayramı münasibətilə "Qadın həyatın sevincidir" mövzusunda ədəbi-bədii gecələr keçirilmişdir.

10 martda Azərbaycan Milli Teatr günü münasibətilə "Teatr həyatın aynasıdır" mövzusunda tamaşa-konsert təşkil olunmuşdur.

12-15 mart tarixlərdə kimsəsiz və baxımsız uşaqlar üçün "Xeyirxahlıq atalardan qalıb", "Xeyir körpüsü" və s. mövzularda ədəbi-bədii kompozisiya təşkil edilmişdir.

21 martda Beynəlxalq Poeziya günü münasibətilə "Könlüm keçir Qarabağdan" mövzusunda poeziya gecəsi təşkil olunmuşdur.

18-22 mart tarixlərdə Novruz bayramı münasibətilə "Elimizə bahar gəlir", "Xonçalı novruz gəlir", "Novruzum, yazım, baharım mənim" və s. mövzularda şənliklər keçirilmişdir.

26-28 mart tarixlərdə Milli Ordunun əsgərləri üçün "Azərbaycan qəhrəmanlar diyarıdır", "Bərdənin Milli qəhrəmanları" və s. mövzularda kompozisiya təşkil edilmişdir.

Beynəlxalq Uşaq Kitabı günü münasibətilə "Çox oxuyan çox bilər", "Kitab tükənməz xəzinədir" və s. mövzularda səhərcik, kitab sərgiləri və bədii qiraət gecəsi keçirilmişdir.

Kəlbəcərin işğalı günü ilə əlaqədar "Mütləq o yerlərə qayıdacağıq, Şuşanın işğalı ilə əlaqədar "Şuşa harayı…" mövzusunda ədəbi-bədii kompozisiya təşkil edilmişdir.

Tanınmış azərbaycan bəstəkarı Asəf Zeynallının 100 illik, akademik Zərifə Əliyevanın anadan olmasının 86-cı ildönümü günü, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 86 illiyi münasibətilə "Heydər adlı günəş sönməz" mövzusunda ədəbi-bədii gecə təşkil edilmişdir.

Beynəlxalq Muzeylər günü münasibətilə "Açıq qapı" günləri elan edilmiş, "Muzeylər Milli sərvətimizdir", "Muzey dünənimizlə bu günümüz arasında körpüdür" və s. mövzularda məruzə və söhbətlər, kompozisiyalar keçirilmişdir.

SSRİ Xalq Rəssamı T.Salahovun 80 illik yubileyi, 28 may Respublika günü münasibətilə konsertlər təşkil edilmişdir.

Bütün tədbirləri bir jurnal yazısında sadalamaq təbii ki, qeyri-mümkündür. Odur ki, Uşaqların Beynəlxalq Müdafiə, Milli Ordu və Silahlı Qüvvələrin yaranması, Milli mətbuat, Ağdam, Cəbrayıl, Fizuli, Qubadlının işğalı, Azərbaycan dili, Milli kino günləri münasibətilə keçirilən tədbirlərin üstündən sükutla keçirik.

**Bu yerdə yada bir el məsəli düşür. Yüz eşitməkdən bir dəfə görmək daha yaxşıdır. Odur ki, digər bölgələrin mədəni-maarif müssisələri nümayəndələrinin Bərdəyə gəlmələrini, hər şeylə yerində tanış olmalarını, fəaliyyətlərini bu istiqamətdə qurmalarını məsləhət bilirik.**

● **Tural**